

# Bakı artıq Neapola bənzəmir

## Neapol və digər gözəl şəhərlər indi Bakıya oxşayır

◆ **Bakı COP29-a hazırlaşır**





**O, Şərqin parlayan ulduzudur...**

**Sanki həqiqi yox, rəssam fırçasıyla Xəzərin fonunda çəkilmiş sənət incisidir...**

**Qədimliklə müasirliyin təzadından yaranan bu unikal ünvanda yaşı min illəri ötən daşlar, qalalar adamlarla pıçıldaşır...**

**Əzbərpozan müasir memarlığıyla gələcəyə körpü salır...**

**Bura Odlar yurdunun küləklər şəhəridir!..**

**Azərbaycanın paytaxtıdır!**

Küçələri, meydanları, parkları, binaları bir-birindən rəngarəng, maraqlı dizaynı, heyrətamiz görünüşü ilə görənlərini heyrətə salan şəhərlər şəhəri...

Bakı!

Bakını bir zamanlar gözəlliyinə görə İtaliyanın Neapol şəhərinə bənzədirdilər...

Amma indi Neapol və dünyanın digər gözəl şəhərləri Bakıya oxşayır...

Çünki şəhər gündən-günə gözəlliyinə gözəllik qatır. Yaşıllıqlara bürünmüş, bağlarında, parklarında fəvvarələr çağlayan qocaman şəhərin səliqə-sahmanı, təmizliyi göz oxşayır. Ən əsası insanlarının istiqanlılığı, mehribanlığı, qonaqsevərliyi Bakını görənlərin hafizəsinə həkk olunur...

Təkcə Dənizkənarı Milli Parkda yaradılan gözəlliklər buranı insanlarımızın, eləcə də xarici turistlərin üz tutduğu ən seçilmiş ünvanlardan birinə çevirib. Şəhərin digər yamyaşıl parkları, bağları da onun kimi...

Bakının gündüzlər bir, gecələr isə bambaşqa görünüşü olur. Sayrışan rəngbərəng işıqlar, böyük çilçıraqlarla işıqlandırılan binalar şəhərin gecəsini də gündüzə çevirir. Qaranlıqda Dağüstü parkdan seyr etdikdə görürsən ki, Bakı sözün əsl mənasında bərq vurur. Şəhərdən saçılan





işıqlar Xəzərin sinəsində parlaq işıq selinə çevrilir. Gözəlliyi ilə dünya şəhərlərini geridə qoyan Bakımız indi bütün təntənəsi ilə COP29-u qarşılamağa hazırlaşır. "Yaşıl dünya" naminə gördüyü fərəh yaradan işlər, yeni uğurlu layihələr, ümumilikdə dünyanın yaşıllaşmasına verdiyi töhfələrlə yaddaşlarda silinməz izlər buraxır.

Çox tezliklə dünyanın dörd bir yanından insanlar tolerantlığın, multikulturalizmin beşiyi olan ölkəmizə yığışaraq gözəl Bakımızdan dünyanın yaşıllaşması, ümumilikdə Yer üzünün xilası üçün sülh, dostluq çağırışı edəcəklər.

*Yasəmən MUSAYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 8 oktyabr (№ 220).- S.7.